## SƏNƏTŞÜNASLIQ ART CRITICISM ИСКУССТВОВЕДЕНИЕ

DOI: 10.36719/AEM/2007-2020/55/142-145

**Aygün Əziz qızı Sərbazova**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
aygun.serbazova90@mail.ru

# PARLAQ RƏNGLƏRIN ECAZKAR SIRRI – GƏNC RƏSSAM XANLAR ƏSƏDULLAYEVIN YARADICILIĞI

***Açar sözlər:*** *Xanlar Əsədullayev,impressionizm, güllər, mənzərə, rənglər, təəssürat*
***Ключевые слова:*** *Ханлар Асадуллаев, импрессионизм, цветы, пейзаж, цвета,впечатление*
***Key words****: Khanlar Asadullayev, impressionism, flowers, landscape, colors, impression*

## Giriş

Müasir dövr Azərbaycan rəngkarlığı keçmiş zamanın ənənələrini davam etdirməklə yanaşı, müasir dövrün tələblərini də özündə cəmləşdirə bilmişdir. Belə ki, müasir Azərbaycan rəngkarlığının inkişafında gənc rəssamların rolunu xüsusilə vurğulamaq lazımdır. Gənc rəssamların yaradıcılığına nəzər yetirdikdə, onların real təsvirlərlə yanaşı abstrakt, avanqard üslubların xüsusiyyətlərinə də meyl etdiyini görürük. Belə gənc rəssamlarımızdan biri də dəzgah rəngkarlığında uğurlar qazanan Xanlar Əsədullayevdir.

Xanlar Əsədullayev 1988-ci il dekabrın 9- da Siyəzən şəhərində anadan olmuşdur. O, 2003-2007- ci illərdə ADRA – nın nəzdində incəsənət kollecinin "İnteryer dizayner" ixtisasında təhsil almışdır . Daha sonra 2007-2011- ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında "Təsviri sənət" fakültəsinin "Rəngkarlıq" ixtisası üzrə təhsilini davam etdirmişdir.Gənc rəssam 2004 – cü ildən başlayaraq, müxtəlif beynəlxalq sərgi və dövlət tədbirlərində aktiv iştirak etməyə başlamışdır. O, 2010- cu ildən etibarən isə Azərbaycan Rəssamlar ittifaqının "Gənc rəssamlar" bölməsinin üzvidir.

Gənc rəssamın yaradıcılığının əsas mövzuları peyzaj və natürmort janrında işlədiyi əsərlər hesab olunur. Onun yaradıcılığındakı əsərlər koloriti baxımdan özünəməxsusluğu ilə seçilir. Kətan üzərində rənglərin ahəngdarlığı,vizual təsvir ənənələri və rənglərin bir – birilə effektiv uyğunluğu rəssamın yaradıcılığı üçün xas olan xüsusiyyətlərdəndir.Rəssam rənglər vasitəsilə təsvir etdiyi obraz və fiqurlara müxtəlif emosional məzmun qazandırmışdır. Onun rəngkarlığı bütünlüklə dekorativ xarakter daşıyır.

Xanlar Əsədullayevin natürmortları maraq doğurur. Onun məhsuldar yaradıcılığında güllər, gül bağçaları mövzusu olduqca önəmli yer tutur.Gördüyü hər gül rəssam üçün yeni bir ilham mənbəyidir. O bir çox rəsmlərində güllərin müxtəlif növündən və rəng çalarlarından istifadə etmişdir. Bu mövzuda olan silsilə əsərlərindən biri də "Gül bağçası" adlı əsəridir. Əsər ümumi olaraq, tamaşaçıda xoş və müsbət bir aura yaradır. İsti və soyuq tonlardan məharətlə istifadə edən rəssam izləyici də səmimi və həssas hislər oyadır. Əsərə ümumi nəzər yetirdikdə, elə başa düşülür ki, sanki böyük bir gül bağçasından bir fraqment təsvir olunub. Tabloda böyük qızılgüllər və yaşıl yarpaqlar və geniş günəş şüaları təsvir olunmuşdur. Əsərdə əsas diqqəti mərkəzdə təsvir olunmuş balaca qız obrazı cəlb edir. Profildən təsvir olunmuş balaca qızcığaz bir əlində dərilmiş qızılgülü, digər əlində isə dərilməmiş qızılgülü tutmuşdur. Əsərin yumşaq rəng koloriti, işıq həlli və personajın donuq duruşu tamaşaçıya emosional təsir bağışlayır.

Rəssamın yaradıcılığına nəzər saldıqda, onun qızılgülləri çox sevdiyinin şahidi olmuş oluruq. Bu qızılgüllər müxtəlif rənglərə - qırmızı, sarı, bənövşəyi rənglərə boyanmışdır. Onun zəngin və əlvan palitrasında olan bütün rənglər demək olar ki, təsvir etdiyi bu güllərdə öz əksini tapmışdır.

Ümumiyyətlə, gənc rəssamın yaradıcılığında gül təsvirləri xüsusi bir mənaya malikdir. Güllərin müxtəlif forması, onların rəng çalarları, düzülüşü və.s. bunlar hamısı rəssamın yaradıcılığının emosional duyğuları haqqında bitkin təsəvvür yaradır. İnsanlarda müsbət və xoş ovqat hissini aşılayan bu güllər mənim fikrimcə onun yaradıcılığının vizit kartıdır. "Gül bağçası", "Yasəmən", "Güllər", "Qonşunun bağı", "Qızılgüllər", "Sarmaşan güllər", "Sarmaşıqlar" kimi bir çox əsərlər öz orijinallığı ilə diqqəti cəlb edir.

Müəllifin yaradıcılığında peyzaj janrında yaratdığı əsərləri xüsusi yer tutur. Rəssamın əsərlərində Bakının özünəməxsus yeri var. Bakının əvəzedilməz məkanı olan İçərişəhəri rəssam böyük ustalıqla tərənnüm etmişdir. "Bakının işıqları", "Bakı mənzərəsi", "Bakı gecələri", "İçərişəhər" adlı əsərləri bu baxımdan maraqlıdır. Rəssam Bakının yeni, müasir görünüşünü tərənnüm edərək doğma vətəninə olan sevgisini

göstərmişdir. İçərişəhərlə bağlı əsərlərində o məkanın öz abu – havasını, qədimliyini zəngin palitrasında olan rənglərlə təsvir etmişdir.

Bakı mövzusunun gənc rəssamın yaradıcılığında böyük önəm daşıdığını qeyd etmişdik. Buraya təkcə İçərişəhərin təsvirlərini deyil digər kompozisiyaları da daxil etmək olar. "Bakı gecələri" adlı tablosunda Bakının ən hündür binası olan Alov qüllələri təsvir olunmuşdur ki, bu da kompozisiyaya nikbinlik, asudəlilik və yüngüllük əhval – ruhiyyəsi bəxş edir.

Tünd – mavi səmanın fonunda bina daha əzəmətli görünür. Binanın mavi,sarı tonlarda işlənmiş fasadı onun monumentallıq xarakterini daha da qüvvətləndirir. Soyuq və isti rənglərin özünəməxsus sintezindən yaranmış bu koloritli tabloda şəhərin gözəl mənzərəsi təsvir olunmuşdur. Rəssamın təsvir etdiyi digər Bakının mənzərələri də koloritli rəng həlli baxımından diqqəti çəkir.



***X.Əsədullayev "Bakı gecələri"Kətan, yağlı boya***

Gənc rəssamın rəsmlərində isti rənglərə müraciəti daha çox diqqəti cəlb edir. Bu onun daxili aləmindən gələn xoş ovqatdan asılıdır. Onun yaradıcılıq yoluna nəzər salsaq görərik ki, o, əsasən qəmgin – kədərli hislər deyildə, müsbət hislər oyadan əsərlər yaradır. O öz düşüncə və hislərini məna və məzmun tutumu ilə gerçəkləşdirərək yaratdığı bu rəngarəngliyi duyulası şəkildə ram etməklə, onların ümumi kompozisiyasını ruhuna uyğunlaşdırmağa və onun bütövlüyünü əldə etməyə nail ola bilmişdir.

Xanlar Əsədullayev yaradıcılığında daha çox əlvan rənglərə üstünlük verir. O, insanlarda xoş təssürat yaratmaq üçün bu rənglərdən istifadə etdiyini vurğulamışdır. Rəssam əsərlərində daha çox gözəlliyi və xoşbəxtliyi təsvir etməklə insanlarda müsbət enerji aşılayır və eyni zamanda onları müəyyən vaxt çərçivəsində problemlərindən uzaqlaşdırmaq istəyir. Onun əsərlərinə baxarkən rəngarənglik, xoş və müsbət enerji insanın mənəvi aləminə yansıyır. Gənc rəssam öz istəyinə nail olur desək fikrimizdə yanılmarıq. Rəssamın rəsmləri daxildən, iç dünyasından süzülüb gələrək ifadəedilməz bir formada kağıza, kətana yansıyır. Rəssamın əsərlərində tamaşaçını əsas cəlb edən əsər qarşısında zaman anlayışını unudaraq dayanmağa sövq edən məhz bu müsbət enerjidir.Rəssamın fırçasından süzülüb gələn rəsm əsərləri tamaşaçını ovsunlamaya bilmir. O seyr etdiyi gözəlliklərə ürək gözü ilə baxaraq, qəlbindən, duyğularından keçirərək rənglərlə həyat verib, kətana köçürür.Rənglərin dili ilə danışmağı xoşlayan rəssam çəkdiyi rəsmlərin mahiyyətini, estetik gözəlliyini və ən əsas əhval – ruhiyyəsini məhz həmin rənglərlə ifadə edir. Məhz elə bu baxımdan da rəssamın palitrası impressionist koloritinə bənzəyir.Gənc və istedadlı rəssamın əlvan rəngləri Klod Mone, Kamil Pisarro, Eduard Mane kimi impresionist rəssamlarının işıqlı plener rəngkarlığını xatırladır.Yaradıcılıq palitrasının rəng əlvanlığı Xanlar Əsədullayevin tablolarına impressionizm abu – havasını gətirir. Fransız dilindən tərcümədə "impression" sözü "təəssürat" mənasını daşıyır.[1] İmpressionizm üslubu gördüklərini olduğu kimi deyil,ondan aldığı təəssüratı,adi gözlə görünməyən rəngləri və çalarları kətana köçürmək idi. Məhz bu səbəbdən rəssamın əsərlərində onun duyğularının ifadəsi olan bu rəngləri duymaq,hiss etmək üçün həm böyük ürəyə, həm də yaradıcı duyuma malik olmaq lazımdır.



Müəllifin rəngarəng əsərləri həm respublikamızda, həm də xarici ölkələrdə sərgilənib. O bir çox layihə və sərgilərin iştirakçısı olub. Müxtəlif illərdə Türkiyənin bir çox şəhərlərində, eləcə də doğma vətəni Azərbaycanın fərqli rayon və şəhərlərində keçirilən sərgilərədə iştirak edərək böyük uğurlar qazanmışdır.

Ümumiyyətlə, mənzərə istedadlı rəssamın yaradıcılığında müstəqil janr olaraq xüsusi yer tutur. Bu janrda yaratdığı əsərləri olduqca maraqlı və gözoxşayandır. O kənd mövzusunda bir sıra rəsmlər işləmiş, "Günəşli gün", "Kənd mənzərəsi", "Qış mənzərəsi", "Payız" tablolarında gördüyü, duyduğu mənzərləri ustalıqla təsvir, tərənnüm etmişdir. Rəssamın təsvir etdiyi "Kənd mənzərəsi" adlı əsərində incə,şəffaf koloriti ilə fərqlənən rənglər güclü emosional təsir bağışlayır.

Yaşıl rəngə boyanmış torpaq, rəngarəng evlər, mavi səma və ağaclar əsərin əsas təsvir obyektləridir. Bu poetik mənzərədə sanki payız fəslinin abu – havası duyulur. Bir – birinin ardınca assimmetrik şəkildə qırmızı damlı evlər təsvir edilib. İsti və soyuq rənglərin kontrastılğı təsviri ifadə gücünü artırır. Əsərdə ön və arxa planda təsvir olunan yaşıl ağaclar sanki yaz fəslini müjdələyir. İncə piqmentli rənglər, kolorit əsəri daha da harmonik edir. Təsvir olunan hər bir detal kompozisiyanın tamlığını qoruyaraq tamaşaçını valeh edir.



***X.Əsədullayev Gül bağçası" Kətan, yağlı boya***

Xanlar Əsədullayev təkcə Azərbaycanı və onun təbiətini deyil, digər ölkələrin də təbiətini, gözoxşayan mənzərələrini məharətlə əks etdirib. Belə mənzərələrdən söz açmışkən rəssamın yaratdığı Yunanıstana aid "Günəşli Aralıq dənizi sahilləri" seriyasına aid silsilə əsərləri yada düşür. Yaradıcılığında Yunanıstan mövzusuna geniş yer ayırmışdır. Müəllifin Yunanıstanla bağlı maraqlı əsərlərindən biri "Çimərlik" adlı tablosudur. "Çimərlik" əsəri realizm üslubunda olsa da, yuxarı rakursdan təsvir olunduğu üçün bir sıra predmetlər şərti təsvir olunub.[2] Əsəri maraqlı edən isə onun fərqli rakursdan yəni, yüksək rakursdan təsvir olunmasıdır. Bu əsərdə rəssam Yunanıstan çimərliklərinin birində adi bir yay gününü fırçaya almışdır. Rəssam rənglərin dili ilə, yüksək rəngkarlıq texnikasıyla isti günəş şüalarının və sahilin qızmar qumlarının koloritini ustalıqla təsvir etmişdir. Kətan üzərində sakit, hüzurlu dəniz və onun sahilində istirahət edən insanlar əks olunmuşdur. O, Yunanıstan mövzusunda bir çox digər əsərlərin də müəllifidir. "Səhər yeməyi", "Səhər", "Yunanıstan", "Sükut", "Təssürat" kimi zəngin koloritə malik olan əsərlərini misal göstərmək olar. Yunanıstanın küçələri, parlayan günəşi, ürəkaçan təbiəti, əsrarəngiz gözəlliyi rəssamın tablolarında öz əksini tapmışdır. Bu tablolar bizi sanki bir anlıq təsvir olunan məkana aparaq,gözəl təssürat hissi yaradır.

Bu silsilədən olan digər rəsm əsəri isə "Santorini" adlı tablosudur.Avropa qitəsinin ən gözəl adası sayılan Santorini Egey dənizində yerləşən Yunanıstana aid adadır.Rəssam Yunanıstanın bu maraqlı və ecazkar adasını böyük məhəbbətlə təsvir etmişdir.Rəssamın bu adaya yanaşmasına,kətan üzərində həkk etməsinə nəzər saldıqda, göz oxşayan, insanı valeh edən bir mənzərə ilə qarşılaşırıq.Geniş və sərbəst yaxmalar əsərin dinamikliyini,hərarətliyini və ecazkarlığını artırır.Ağ,mavi,sarı və qəhvəyi rəng çalarları ilə işlənmiş bu rəsm izləyiciyə estetik zövq verir.Gümbəzli evlərin ətrafında qanad çalan quşların təsviri sanki əsərə nağılvari abu – hava bəxş edir.İsti və soyuq koloritli fırça toxunuşları onu izləyən tamaşaçıda səmimi və həssas hislər oyadır.

Müəllifin rəngarəng əsərləri həm respublikamızda, həm də xarici ölkələrdə sərgilənib.O bir çox layihə və sərgilərin iştirakçısı olub.O, 2013 – cü ildə Türkiyənin İstanbul şəhərində Dolmabahçe sənət qalereyasında "Türkiyə - Azərbaycan Uluslararası Karma" rəsm sərgisində iştirak edərək ikincilik mükafatı və medal qazanmışdır.Daha sonra Bakıda keçirilən "Bakının işıqları" adlı rəsm sərgisinin qalibi seçilmişdir. Müxtəlif illərdə Türkiyənin bir çox şəhərlərində, eləcə də doğma vətəni Azərbaycanın fərqli rayon və şəhərlərində keçirilən sərgilərədə iştirak edərək böyük uğurlar qazanmışdır.

Rəssam portret janrına da müraciət edərək bu janrda bir sıra əsərlər yaratmışdır. "Atlet" "Caz ifaçısı", "Gənc qız" "Klod Mone" portretlərində rəssamın obraza olan münasibəti rənglərdə əks olunmuş səmimi hislər vasitəsilə öz ifadəsini tapmışdır.

## Nəticə

Xanlar Əsədullayev yaradıcılığına nəzər saldıqda, doğurdan da onun rəsm əsərləri insanda ifadə edilməz gözəl təəssüratlar yaradır. O, gördüyü bütün gözəlliyi rənglərin və fırçanın dili ilə göstərməyə çalışır. Yaratdığı əsərlər onun zəngin daxili aləmə, həyat haqqında fərqli fikir- düşüncəyə malik olmasını sübut edir. Onun bənzərsiz tabloları özünəməxsus dünyagörüşünə və fərdi üslubuna əsaslanır.

## Ədəbiyyat

1. L.C.Axundzadə, XX əsr Dünya Təsviri İnəcəsənəti,Bakı –2011
2. https://emalatxanadagorush.wordpress.com/2018/02/02/xanlar-əsədullayev/
3. https://qorod.blog/2018/03/16/xanlar-asadullayev-2/
4. http://portal.azertag.az/az/node/2381

## The wonderful secret of bright colors – creativity of young artist Khanlar Asadullayev

**Summary**

The main themes of the young artist's work are works in the genre of landscape and still life. His works are distinguished by their peculiarity in terms of color. The harmony of colors on the canvas? the traditions of colors are the characteristics of the artist's work.The artist has given various emotional to the images and figures he described through colors.His painting is entirely decorative.

## Изысканная загадка ярких цветов – творчество молодого художника Ханлара Асадуллаева

**Резюме**

Основными темами творчества молодого художника являются производения в жанре пейзажа и натюрморта. Работы в его творчестве отличаются оригинальностю (своеобразностью) с точки зрения колорита. Гормония цветов на холсте, традиуии визуального описания и эффективная комбинация цветов являются одними из особенностей работы художника. Художник придавал различное эмоциональное наполнение изоброжениям и фигурам, которые щн изображал с помощью цветов .Уго живопис полностью имеет декоротивный характер.

**Rəyçi: dos. X.Əsgərova**

Göndərilib: 12.06.2020 Qəbul edilib: 17.06.2020